**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 6/3

Bakı şəhəri 19 aprel 2017-ci il

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına
Qızıl medalı"na namizədlər haqqında

Azərbaycan Respublikasının 16 may 2014-cü il tarixli Qanunu ilə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" təsis edilmiş, Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanı ilə bu medalla təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir. AMEA Rəyasət Heyətinin 15 fevral 2017-ci il tarixli, 2/2 №-li qərarı ilə Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalına 2017-ci il üçün müsabiqə elan edilmişdir.

Müsabiqədə iştirak etmək üçün irəli sürülmüş alimlər haqqında təqdimatlar, müvafiq sənədlərlə birlikdə AMEA prezidentinin 31 mart 2014-cü il tarixli 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim olunmuşdur. Ekspert Komissiyasının 06 aprel 2017-ci il tarixində keçirilmiş yekun iclasında Nizami Gəncəvi adına Qızıl medala namizədlər seçilmiş və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilmişdir.

AMEA-nın mükafatlar üzrə Ekspert Komissiyasının namizədlər haqqında təqdimatını nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Müstəqillik illərində elm, təhsil sahəsində həyata keçirilən mühüm beynəlxalq layihə – Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin, Nizami Gəncəvi Fondunun yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsi, Azərbaycan ədəbiyyatının dünya miqyasında tədqiq olunması sahəsindəki müstəsna xidmətlərinə görə AMEA-nın müxbir üzvü Nərgiz Arif qızı Paşayeva "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif edilsin.
2. Azərbaycanın mədəni və tarixi irsinin beynəlxalq miqyasda elmi əsaslarla

öyrənilməsinə və təbliğinə verdiyi mühüm dəstəyə görə Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin İngiltərə tərəfindən rəhbəri, professor Robert Hoyland "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif edilsin.

3. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayev) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, təltif edilmiş namizədlərin hər birinə 10 000 (on min) manat vəsaitin ödənilməsini təmin etsinlər.
4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev